“Xudafərin harayından qalan mən!..”

# XUDAFƏRİN



Qəzet 1932-ci ildən çıxır № 15-16 (6791-6792) 29 dekabr 2017-ci il Cəbrayıl RİH-nin orqanı

## 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür

## *Yeni iliniz mübarək!*

# DÜNYA AZƏRBAYCANLILARINA



**Əziz həmvətənlər!**
**Hörmətli soydaşlar!**

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə “Əsrin müqaviləsi”nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 dekabr 2017-ci il*

# Cəbrayıllıların

## *Yeni il şənliyi*



Dekabrın 28-də rayon ziyalıları, ağsaqqallar, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələrinin iştirakı ilə ”Cəbrayıl” şadlıq sarayında ”31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” və Yeni il münasibəti ilə tədbir keçirildi.

Bayram tədbirini açan Cəbrayıl rayon İcra Hakimiyyətinin başçısı Kamal Həsənov yığıncaq iştirakçılarını xalqımızın birlik və mütəşəkkilliyinin rəmzi olan ”31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü” və Yeni il bayramları münasibəti ilə təbrik etdi.







İcra Hakimiyyətinin başçısı 2017-ci ildə rayonda həyata keçirilmiş sosial-iqtisadi layihələr və qarşıda duran vəzifələr haqqında ətraflı məlumat verdi və qarşıdan gələn Yeni ildə camaatımıza sağlamlıq, firavanlıq və doğma Cəbrayılımıza qayıtmaq arzularını dilə gətirdi.

Bayram tədbiri rayonun incəsənət ustalarının hazırladığı konsert proqramı ilə davam etdirildi.

## Yeni Azərbaycan Partiyasının 25 illiyi münasibətilə ağacəkmə aksiyası



Dekabrın 12-də Yeni Azərbaycan Partiyası Cəbrayıl rayon təşkilatının fəalları Yeni Azərbaycan Partiyasının yaranmasının 25 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirdilər.

Aksiyada Cəbrayıl rayon İcra Hakimiyyətinin, YAP Cəbrayıl rayon təşkilatının fəalları və ictimaiyyət nümayəndələri aktiv şəkildə iştirak edirdilər. Aksiya çərçivəsində 500-ə yaxın müxtəlif növ ağaclar əkilərək suvarıldı.

Qeyd edək ki, gələcəkdə də bu cür aksiyaların davam etdirilməsi, yeni yaşıllıq massivlərinin yaradılması nəzərdə tutulmuşdur.

**“Xudafərin”**

## Ulu Öndərin xatirəsi yad edilmişdir



Dekabrın 12-də Cəbrayıl rayon İcra Hakimiyyətinin, YAP Cəbrayıl rayon təşkilatının, hüquq-mühafizə orqanlarının və rayonun idarə, müəssisə əməkdaşlarının iştirakı ilə Ulu Öndər Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirilmişdir.

Tədbir iştirakçıları Ulu Öndərin adını daşıyan parkda Ümummilli Liderin abidəsini ziyarət edərək, abidə önünə gül-çiçək dəstələri düzdülər.



Daha sonra tədbir iştirakçılarının öz aralarında apardıqları ümumi fikir mübadiləsi zəminində Ümummilli Liderin dövlətçilik fəaliyyətindəki uğurlarından danışıldı, əzmkar mövqe nümayiş etdirməsindən və xalqımızın xatirəsində əbədiyaşarlıq qazanılmasından söhbət açıldı, unudulmaz əməlləri xatırlandı.

**"Xudafərin"**

## Sevindirici uğurlar



Qəzetimizin baş redaktoru Şakir Albalıyev AMEA-nın aspirant və doktorantlarının iştirakı ilə keçirilən "Ana dilimiz milli varlığımızdır" müsabiqəsindən uğurla keçərək, 140 nəfərin arasında 3-cü yeri tutmuşdur.

Bu münasibətlə AMEA-nın prezidenti akademik Akif Əlizadənin imzası ilə xüsusi diplomla təltif olunmuş, 1000 manat pul mükafatına layiq görülmüşdür.

***




Qəzetimizin baş redaktoru Şakir Albalıyevin dekabrın 28-də AMEA-da "Folklorun sosial aspektləri: Kommunikasiya və virtual ənənə" mövzusundakı elmi konfransda etdiyi "Şifahi ünsiyyət prosesində folklorun semantikası" adlı məruzəsi böyük maraqla dinlənilmişdir.

**"Xudafərin"**

# Cocuq Mərcanlıdan xəbərlər

Noyabrın 24-də Konstitusiya Məhkəməsinin kollektivi Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı qəsəbəsinə səfər edib.

Qonaqlar əvvəlcə Füzuli və Cəbrayıl rayonlarının rəhbərliyi ilə birgə Horadiz şəhərində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, dahi rəhbərin xatirəsini ehtiramla anıblar. Sonra məktəbin kollektivinə ünvanlanmış məktubu oxunub.

Məhkəmənin aparat rəhbərinin müavini Səbinə Əliyeva dövlətimiz tərəfindən məktəbdə hər cür şərait yaradıldığını, təhsil ocağının bütün zəruri avadanlıqlarla təmin olunduğunu, bununla belə, Konstitusiya Məhkəməsi



## Konstitusiya Məhkəməsinin kollektivi Cocuq Mərcanlıya səfər edib

"Aprel şəhidlərinə xatirə" abidəsi ziyarət edilib.




Daha sonra Novruz Aslanov adına Cocuq Mərcanlı tam orta məktəbinin kollektivi və sakinlərlə görüş keçirilib. Qonaqlar sinif otaqlarını, fənn kabinetlərini gəzib, müəllim və şagirdlərlə həmsöhbət olublar.

Məhkəmənin hakimi Ceyhun Qaracayev işğaldan azad olunmuş torpaqlara gəldikləri üçün böyük qürur hissi keçirdiyini qeyd edərək, burada yaşamağın, işləməyin böyük fədakarlıq, vətənpərvərlik nümunəsi olduğunu bildirib. Diqqətə çatdırılıb ki, düşmənin xarabalığa çevirdiyi Cocuq Mərcanlı Prezident İlham Əliyevin sərəncamlarına əsasən qısa vaxtda yenidən qurulub, bütün infrastruktura malik abad qəsəbəyə çevrilib. C.Qaracayev işğal altındakı bütün torpaqlarımızın Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tezliklə azad olunacağına əminliyini ifadə edib.

Konstitusiya Məhkəməsi sədrinin kollektivi adından da hədiyyələr gətirildiyini bildirib.

Sonra təhsil ocağına hədiyyələr təqdim olunub.

Məktəbin direktoru Zamin Həziyev qəsəbəyə gəldiklərinə, sakinlərə mənəvi dəstək olduqlarına görə Konstitusiya Məhkəməsinin kollektivinə minnətdarlığını ifadə edib.

Qonaqlar Cocuq Mərcanlıda tikilən Şuşa məscidinin bənzəri olan məscidə də gəlib, şəhidlərin ruhuna dua oxuyublar.

Məscid haqqında məlumat verən axund Elman Piriyev Cəbrayıl torpağında belə bir məscidin inşa olunmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirib. "İşğaldan azad olunmuş Cocuq Mərcanlıda Şuşa məscidinin oxşarının tikilməsi o deməkdir ki, biz işğal altındakı bütün torpaqlarımızı, o cümlədən Şuşa şəhərini azad edəcəyik, Qarabağdakı bütün abidə və ibadət yerlərimiz bərpa olunacaq", - deyə axund vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin nümayəndəsi Əlizadə Nəcəfov və Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının müavini Arif Fərzəliyev Prezident İlham Əliyevin Sərəncamı ilə Cocuq Mərcanlı qəsəbəsinin yenidən qurulmasını və sakinlərin 24 ildən sonra doğma yurdlarına qayıtmasını Böyük Qayıdışın başlanğıcı olduğunu diqqətə çatdırıb, bütün məcburi köçkünlərin ata-baba torpaqlarına qayıdacaqlarına əminliklərini bildiriblər.

Konstitusiya Məhkəməsinin kollektivi sonra qəsəbədə aparılan quruculuq işləri ilə tanış olublar.

### İctimai Birliklərin kollektivləri Cocuq Mərcanlıya səfər ediblər



"Gənclərin Töhfəsi" İctimai Birliyi, "Hilal" Sosial Araşdırmalar İctimai Birliyi, Müstəqil Mətbuat Mərkəzi İctimai Birliyi və Müasir İnkişaf İctimai Birliyinin kollektivləri, "Xalq qəzeti" və AMEA-nın Mərkəzi Kitabxanasının əməkdaşları, Qazilər Natiq Mehdiyev və Ülfət Həsənov noyabrın 25-də Cəbrayıl rayonunun işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər ediblər

Nümayəndə heyətinin üzvləri Novruz Aslanov adına tam orta məktəbin kollektivi və kənd sakinlərilə görüş keçirib, məktəbin kitabxanasına kitablar, şagirdlərə müxtəlif hədiyyələr təqdim etmişlər.

Şuşa məscidinin bənzəri olan Cocuq Mərcanlı kənd məscidini ziyarət edən qonaqlar kənddəki tikinti-quruculuq işləri ilə də tanış olmuşlar.

### Misirin aparıcı media nümayəndələri Cocuq Mərcanlıda

Beynəlxalq Avrasiya Mətbuat Fondu (BAMF) və İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiyasının dəvəti ilə Misirin ölkəmizə gəlmiş aparıcı media nümayəndələri Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfər ediblər.

Nümayəndə heyətinin üzvləri Horadiz şəhərində "Aprel şəhidlərinə xatirə" abidəsini ziyarət edərək abidə önünə gül dəstələri düzdükdən sonra Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə gələn nümayəndə heyətinə işğal olunmuş ərazilərdə ermənilərin törətdikləri vəhşiliklər, həmçinin kəndin bərpası ilə bağlı görülən tədbirlər, aparılan minadan təmizləmə və tikinti işləri barədə məlumat verilib. Bildirilib ki, kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilərək yandırılıb, dağıdılıb. Azərbaycan Ordusunun 1994-cü ilin əvvəlində keçirdiyi Horadiz əməliyyatı zamanı kənd erməni işğalından azad olunub. 2016-cı ilin aprel əməliyyatlarına qədər Lələtəpə strateji yüksəkliyi Ermənistan ordusunun işğalı altında olduğundan Cocuq Mərcanlı kəndində yaşayış qeyri-mümkün idi. Lakin ötən ilin aprel ayında Azərbaycan Silahlı Qüvvələrinin yüksəkliyi azad etməsindən sonra artıq kənddə təhlükəsiz yaşamaq imkanı yaranıb.



Məlumat verilib ki, ilkin mərhələdə 10 hektar ərazidə geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri aparılıb, 50 ev, 96 şagird yerlik ümumtəhsil məktəbi, məscid, elektrik yarımstansiyası inşa edilib, qaz, elektrik, içməli su xətləri, avtomobil yolu çəkilib. Nümayəndə heyəti kəndin məktəbi və məscidi ilə də yaxından tanış olub.

### "Öyrənək, öyrədək"layihəsi Cocuq Mərcanlıda

Azərbaycan Respublikasının Təhsil Nazirliyi Təhsildə inkişaf və innovasiyalar üzrə 1-ci qrant müsabiqəsi çərçivəsində Cocuq Mərcanlıda da "Öyrənək, öyrədək" layihəsi uğurla davam edir. Layihənin açılışında Təhsil Nazirliyinin əməkdaşı, təhsilin inkişaf proqramları şöbəsinin keyfiyyətin təminatı sektorunun rəhbəri Almaz Əsgərova, Təhsil institunun əməkdaşı Tofiq Sadıqov, Binəqədi rayon Gənclər və İdman İdarəsinin baş məsləhətcisi Rüfət Əhmədov, Cəbrayıl rayon Cocuq Mərcanlı kənd icra numayəndəsi Xanlar Zeynalov, Yevlax şəhər 7-N li tam orta məktəbin müəllimləri Natəvan Quliyeva və Bəsti İbrahimova iştirak etmişlər.





*Cocuq Mərcanlıdan xəbərləri hazırladı:*
**HİDAYƏT SƏFƏRLİ**
**"Xudafərin" qəzetinin baş redaktor müavini**





## *Birləşmiş Ərəb Əmirliklərindən "Xudafərin" qəzetinə yubiley təbriki*

# ”Xudafərin”- qürbətdə yurd işığı

Odlar Yurdu Azərbaycanın, zəngin yeraltı sərvətləri, ecazkar təbiətilə gözəllikləri diyarı Qarabağın dilbər guşələrindən sayılan, qədim əlyazmalarda, orta əsr ərəb səyyahlarının tarixi əsərlərində ”Mədinə timtəz bil-cisireyn əlləzin yauvudən ilə hokbat əl-kadimə” - ”Tarixi lap qədimlərə söykənən və əzəmətli körpülərlə məşhur şəhər” adlandırılan Cəbrayıl rayonunun birlik rəmzi, bütövlük simvolu olan ”Xudafərin” qəzetinin 85 illik yubileyidir! Qəzetin ilk nömrəsinin çapdan çıxmasından uzun bir zaman - 85 il keçir. Mürəkkəb, mübarizələrlə dolu ziddiyyətli zaman axınında Cəbrayılın acılı-şirinli günlərinə məşəl tutan, fəaliyyət göstərdiyi 85 il ərzində doğma yurdumuzun ictimai-siyasi, iqtisadi-sosial, mədəni həyatını dolğun şəkildə özündə əks etdirən “Xudafərin” qəzeti bütün dövrlərdə öz sələflərinin ənənələrini layiqincə davam etdirərək üzərinə düşən tarixi missiyanı şərəflə yerinə yetirib. Rayon həyatının aynası olan, ziyalı sözünə dəyər verən, oxucularını daim maarifləndirən, məlumatlandıran, peşəkar mühərrirlərin, qələm əhlinin imzası ilə dərc edilən məqalələri, oçerkləri, reportajları, publisistik yazıları ilə geniş oxucu rəğbəti qazanan ”Xudafərin” qəzeti eyni zamanda, Cəbrayıl elində ədəbi-bədii mühitin formalaşmasında, gənc istedadların püxtələşməsində, onların yaradıcılığının təbliğində də müstəsna xidmətlər göstərən dəyərli bir mətbu nəşridir.

Ancaq əfsuslar olsun ki, uzun illərdir mənfur düşmənlərimizin məkrli hiylələri ucbatından doğma yurdumuzdan köçkün düşən cəbrayıllılar kimi, ”Xudafərin” də el-obasından məcburən ayrı düşərək, yurd həsrətindən qovrulan bir didərgin həyatı yaşayır... Bu çəkilməz, ağır yükü üzərinə götürən qəzetin yaradıcı kollektivi bütün çətinliklərə baxmayaraq, illərdir düşmən tapdağında əsir olan, yurd-yuvası yağmalanan Cəbrayılı həsrət dolu, nisgilli ”Xudafərin”in səhifələrində yaşadırlar! ”Xudafərin” qəzeti biz cəbrayıllıların arzu-istəklərini, qayğılarını, adət-ənənələrini, folklorunu, məişətini, bir sözlə, doğma yurdumuz Cəbrayılın dünəni, bu günü və sabahını özündə ehtiva edir. ”Xudafərin” nəinki Azərbaycanda, hətta əcnəbi məmləkətlərdə qürbət ömrü yaşayan cəbrayıllıların ən sevimli qəzetidir. Biz qəriblər əsirlikdə tənha qalan el-obamızın cənnət qoxulu rayihəsini alırıq doğma ”Xudafərin”imizdən!..

Öz yurduna, əzəli torpağına tamarzı qalan insanların ağrı-acılarına, qəlb sızıltılarına, həzin xatirələrinə, düşüncələrinə geniş şəkildə yer ayıran, Qarabağ savaşındakı olayları, qanlı-qadalı tarixi həqiqətləri oxuculara mübaliğəsiz çatdıran doğma qəzetimizin əməkdaşlarının zəhmətini qeyd etməmək mümkün deyil. Qəzetin baş redaktoru filologiya üzrə fəlsəfə doktoru, hörmətli ziyalımız Şakir Əlifoğlunun rəhbərliyi altında ”Xudafərin” işığına toplaşan bütün ellilərimi yubiley münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Uzun illərdir qürbət eldə yaşayan bir cəbrayıllı kimi, mənimlə sıx təmasda olan, Vətənlə bağlı xatirələrimi qəzetimizdə müntəzəm dərc edən xudafərinçilərə və məxsusi olaraq, dəyərli ziyalımız Hidayət Səfərliyə dərin minnətdarlığımı bildirirəm. Sizlərə bu çətin, lakin şərəfli işinizdə yeni-yeni müvəffəqiyyətlər, bol uğurlar diləyirəm. Doğma Cəbrayılımızda görüşmək diləyilə 85 illik yubileyin mübarək, əziz ”Xudafərin!”



**Şəhrizad Süleyman,**
**Abu-Dabi Universitetinin əməkdaşı**

# TÜRKÜN ÇARƏSİ

İnsanlar xəstələnməyi və sağlam olmağı hələ keçmiş dövrlərdən fərqləndirməyə başlamışlar. İnsanın yaşaması onun özünü dərk etməsiylə təxminən eyni müstəvidə paylaşılan idrakın bir hissəsi olub, çünki ölüm, agrı, qan, yaralar bunlar hər addımbaşı insan övladını izləmişdir. Bu cür cansıxıcı qayğılardan qurtarmağın yollarını bizim ulu babalarımız, hətta İbtidai icma dövründən başlayaraq axtarıb, araşdırıb tapmışlar. ”İbtidai xalq” öz sağlamlığına elə öz səyi, bacarığı ilə aralarındakı xüsusi qabiliyyətli insanların anlayışlarını dəyərləndirərək nail olmuşdur. O vaxtdan bəri bu günümüzə qədər gəlib çatmış ənənələr öz müxtəlifliyi ilə təkmilləşmiş, müasirləşmişdir. Qədim insanlar öz ayaqları altında bitən otları yaxşı tanımış, meyvələrin faydalı tərəflərini bilmişlər. Onlardan müxtəlif dərmanlar hazırlamaq, lazım gəldikdə necə istifadə etmək, sadə dəmləmələrlə, mürəbbələrlə ”Azar-bezar” dedikləri ağrını-acını uzaqlaşdırmağı, işləməyə, yaşamağa mane olan hər nə varsa hamısını aradan qaldırmağı bilmişlər. Xalq təbabətini bəzən müalicə metodu kimi qəbul etməsələr də, yüzlərlə dərman preparatının məhz bitki tərkibli olduğunu hamımız bilirik. Əczaçılıq sənayesinin 40%-nin xammal hissəsini bitkilər təşkil edir ki, Akademik təbabətdə də bunlardan geniş şəkildə istifadə olunur. Vətənimiz Azərbaycanın gözəl, səfalı təbiəti də hər cür faydalı bitkilərdən lazımınca yararlanmağa imkan verir. ”Yaşıl həkim” adlandırılan bu bitkilər və meyvələr hər birimiz üçün heç özümüzün də inanmadığımız formada hamımıza yetərincə kömək ola bilir. Daha doğrusu istifadə edənlərə vaxtaşırı kömək olur da. Bunlardan elə təkcə dünyada 200 növü məlum olan bağayarpağını qeyd etmək olar ki, bizim ölkəmizdə də onun 13 növü məlumdur. Onun 7 növü təbabətdə istifadə olunaraq İltihabəleyhinə, Mədə-bağırsaq, Tənəffüs yolu xəstəliklərində yaxşı təsir edir. Qanayan yaralarnın üzərinə bir ədəd Bağayarpağı qoymaq onun qanamasının qarşısını alır və sağalmasını sürətləndirir. Bundan əlavə, Kəkotu, Çobanyastığı, Qırxbuğum, Boymadərən, Ayıdöşəyi, Nanə, Hil, İtburnu, Zəfəran, Sarımsaq, Gicitkən, Dazıotu, Yovşan, meyvələrdən zoğal, moruq, qoz, böyrütkən, alma, heyva və s. kimi bitkilər cana məlhəm olur. Xalq təbabəti müasir formada olan elmi-nəzəri şərtlərə, qaydalara əsaslanmasa da, bu bitkilərin tərkibində olan vitaminlər - mikroelementlər, flavonoidlər, aşı maddələri, alkoloidlər, efir yağları bunların əsas fizioloji təsiredici xüsusiyyətini əmələ gətirir. Onlar KRX-də (Kəskin respirator xəstəlik), Ürək-qandamar, Mədə-bağırsaq, Tənəffüs yollarının iltihabı, Anemiyada (Qan azlığı), Ginekoloji xəstəliklərdə effektli şəkildə istifadə olunur. Bu bitkilərlə, onların şəfalı tərəfləriylə bağlı yazı yaranandan sonra çoxlu kitablar, külliyyatlar yazılmış və bizim dövrümüzə qədər gəlib çatmışdır. Bu dərman vasitələri ekoloji çirklənməyə baxmayaraq, hələ də özünün təsir gücünü qorurub saxlamışdır. 1500-dən çox növə təsmil olunan bu bitkilər Azərbaycan florasının 30%-dən çoxunu təşkil edir. Bu çoxluqdan istifadə edərək sağlamlığımızı qorumaq isə bizim boynumuzda qalır. Gəlin yaşıl təbiətlə sağlam həyata doğru gülümsəyək!



**FƏRQANƏ SƏFƏRLİ,**
**HƏKİM-TERAPEVT**

## *"Xudafərin"-85*

# "Xudafərin"dən Cəbrayılın ətri gəlir

”Xudafərin” qəzeti mənim üçün həmişə doğmadır, əzizdir. Hələ orta məktəbdə oxuyarkən ”Kolxozçu” adı ilə çap olunan bu qəzetin daimi oxucularından biri olmuşam. Bəzən dostlarımla birlikdə mətbəəyə gələr, dəzgahların ahəngdar ritminə qulaq asa-asa çap prosesini maraqla müşahidə edərdik. Onu da deyim ki, 60-70- ci illərdə ab-hava başqa cür idi. Adamların kitab-qəzet oxumağa marağı çox böyük idi. Həftədə azı 2 dəfə çıxan ”Kolxozçu” qəzetini səbirsizliklə gözləyirdilər. Rayonumuzun gündəlik həyatı, uğurlar və problemlər, sosial məsələlər və s. burada öz əksini tapar, obyektiv işıqlandırılardı. Hamının özününkü hesab etdiyi qəzetdə oxuculara ürək sözlərini, istəklərini bildirmək üçün meydan verilir, şərait yaradılırdı. Qəzet rayonumuzun camaatının tribunasına çevrilmişdi.

Redaksiya heyəti vahid bir ailəni, ansamblı xatırladırdı. Bir-birindən istedadlı jurnalistlərin-müxbirlərin qələminə söz ola bilməzdi. Hərəsi bir şöbənin aparıcı qüvvəsinə, gənclər üçün uğura aparan yolun bələdçisinə, mayakına çevrilmişdilər.

”Zəhmətkeş məktubları” şöbəsinin xüsusi müxbiri Telman Aslanov oxucu məktublarına heç vaxt biganə qalmamışdı. O, çoxlu sayda insanların problemlərini qəzet səhifələrində işıqlandırmış, onlarla gənc yazarların bədii yaradıcılığını peşəkarlıqla analiz edərək, onları düzgün ədəbi istiqamətə yönəltmiş, uğurlarına ürəkdən sevinmişdir.

Öhdəsinə düşən vəzifəni həmişə vicdanla yerinə yetirən Telman Aslanovun “Baba yurdunun əsgəri” adlı oçerki, “Gav dərəsinin dələduzu” felyetonu onu oxuculara daha çox sevdirmişdi.

Qeyd etdiyim kimi o, vaxtlar redaksiyanın çox mehriban kollektivi var idi. Redaktor Ədil Şərifov şəxsiyyəti, yüksək əxlaqı, humanist düşüncələri və məhrəm münasibətləri ilə redaksiyaya sağlam, işgüzar ab-hava gətirmişdi. Ədil müəllimin dərin zəkasına, parlaq jurnalist qələminə, estetik zövqünə, etikasına söz ola bilməzdi. Cəmiyyət onu bir şəxsiyyət kimi qəbul edir, ağsaqqal kimi dəyərləndirir, faydalı məsləhətlərindən yararlanardı. Onun hörmət və nüfuzu olduqca böyük idi. Cəbrayıl mənəviyyatının daşıyıcılarından, simvollarından sayılan Ədil Şərifovun mənalı ömür yolu gənc nəsil üçün tərbiyəvi məktəbdir. Zaman həmişə bu cür insanların çiyinləri üstündə qərar tutub...

1995- ci ilin ılıq yaz günlərindən biri idi. Paytaxtın ” Bakı” mehmanxanasının qarşısında toplaşan yüzlərlə insanlar bir-biri ilə söhbət edib, hal-əhval tutur, sabahkı günlərinin-ümumiyyətlə, aqibətlərinin necə olacağı barədə götür-qoy edirdilər. Onlar-taleyin bu dönəmində məcburi köçkünlük, qaçqınlıq həyatı yaşamağa məcbur edilmiş Cəbrayıl sakinləri idi. Bu yer onlar üçün bir mətə idi. Hər gün dərdlərini ovundurmaq, düşdükləri sehirdən ayrılmaq, nə baş verdiyini anlamaq üçün buraya toplaşar, əlacsız qaldıqları üçün yalnız bir-birlərini görməklə təsəlli tapardılar. Adamların arasında orta yaşlı bir kişi, qoltuğunda bir topa qəzet, asta-asta var-gəl edər, hər kəsə qəzetin bir nüsxəsini verib bərk-bərk tapşırardı ki, onu oxuyun, cırıb tullamayın, bu, bir tarixdir, gələcəkdə lazım olar.

Qəzeti alanlar acgözlüklə onu oxuyar, bu xeyirxah insana minnətdarlıq edərdilər. Qaçqın rayonların içərisində yeganə işıq üzü görən bu qəzet-” Xudafərin” qəzeti idi. Onu min bir əzabla çap etdirib camaata tutya kimi paylayan isə həmin qəzetin cəfakeş, fədakar redaktoru Əliyev Seyfəddin Bəşir oğlu idi. Qəzeti böyük çətinliklə də olsa, ayda bir dəfə çap elətdirib camaata pulsuz paylamaq adamdan böyük iradə, səbr və təmkin tələb edir.Ömrünün 50 illini jurnalist peşəsinə bağlayan Seyfəddin müəllim Cəbrayılın müxtəlif sənət adamları haqqında istər yerli, istərsə də respublika mətbuatında çap olunmuş yüzlərlə məqalənin, publisistik yazıların müəllifi idi.

“Xudafərin”- keçmiş ”Kolxozçu” qəzetində fotomüxbir işləmiş, bu gün ömrünün ixtiyar çağlarını yaşayan Hüseynov Əlfəs Qurban oğlunun fəaliyyətini unutmaq olmaz. Əlfəs Hüseynov seçdiyi sənətin vurğunu idi. 33 il sərasər bir redaksiyada fotomüxbir işləməyin özü çox mətləblərdən xəbər verir. Həyatın bir anını əbədiləşdirdiyi saysız-hesabsız fotolar onun mənalı ömrünə tutulan bir güzgüdür, aynadır. Yaradıcı fotoqraf kimi çəkdiyi yüzlərlə şəkillərə yazdığı yığcam mətnlər Əlfəs Hüseynovun istedadının, mənəvi dünyasının, bacarığının göstəricisidir....

Təxminən 40 il bundan əvvəl rayonumuzda gördüyüm bir mənzərə bu gün də davam etməkdədir. Yaşlı sakinlərdən altı-yeddisi skamyada əyləşmişdilər. Onlardan biri gözündə eynək, ayaq üstə dayanıb ucadan ” Kolxozçu” qəzetini oxuyur, o biriləri də maraqla ona qulaq asırdılar. Məni təəccübləndirən o idi ki, həmin qoca qəzeti lap başdan-” Bütün ölkələrin proletarları, birləşin!” Sonra da qəzetin adını, sayını, nömrəsini və tarixindən tutmuş, axırıncı səhifənin son sözünə qədər-nə vardısa nöqtəsinə, vergülünə qədər oxuyurdu. Tarix təkrar olunur. Bu gün də biz” Xudafərin ” qəzetinin hər nömrəsini o qaydada oxuyuruq. Çünki orada Cəbrayıl ruhu, nisgili, ətri var.

Bu gün həmin qəzetin çap olunub, həmyerlilərimizə paylanması missiyasını baş redaktor Şakir Albalıyev uğurla yerinə yetirir. Necə deyərlər, estafet etibarlı əllərdədir. Şakir müəllimin istedadına, qələminə, bədii təfəkkürünə, yaradıcı ampulasına, mənəvi dünyasına söz ola bilməz. Əziyyəti, zəhməti də göz qabağındadır.

Hörmətli Şakir müəllim! ”Xudafərin” qəzetinin 85 illik yubileyi münasibətilə Sizi və bütün yaradıcı heyəti şəxsən öz adımdan, eləcə də işlədiyim C. Əhmədov adına Cəbrayıl şəhər tam orta məktəbin kollektivi adından təbrik edirəm. Gördüyünüz bu xeyirxah işlərlə savab qazanırsınız. Gələcəkdə bu qəzetin heç olmasa ayda 2 dəfə çap olunmasını arzulayıram. O gün olsun ki, hamımız üçün əziz olan ”Xudafərin”imiz doğma Cəbrayılda işıq üzü görsün. Amin!

” Ədil, Əmir, Telman, Afər,
Barat, Seyfəddin-o illər,
Jurnalist tək böyük hünər
Göstərdilər bir zamanlar.

Sirac möhtəşəm qaladı,
Əlirza bir dəryadı.
Qabilin zövqü aladı,
”Kolxozçu”da bir zamanlar”...



**Vidadi Hümbətov,**
**”Qızıl qələm” mükafatı laureatı**

# Akademik Əşrəf Hüseynovun anadan olmasının 110 illiyinə həsr edilən tədbir keçirilib



*Prezident İlham Əliyev Akademik Əşrəf Hüseynovun 110 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalamışdır.*

*Sərəncamda deyilir:*

*2017-ci ildə Azərbaycanın görkəmli riyaziyyatçı alimi, tanınmış pedaqoq, əməkdar elm xadimi, akademik Əşrəf İsgəndər oğlu Hüseynovun anadan olmasının 110 illiyi tamam olmuşdur.*

*Əşrəf Hüseynov fundamental tədqiqatlar müəllifi kimi aldığı nəticələr, yaratdığı nəzəriyyə və açdığı yeni istiqamətlərlə Azərbaycanda çoxəsrlik tarixə malik riyaziyyat elmini daha da zənginləşdirmiş, onun müasir mərhələdə inkişafına dəyərli töhfələr vermişdir. Uzun illər pedaqoji sahədə fəaliyyət göstərən və riyazi biliklərə dərindən yiyələnmiş yüksək hazırlıqlı mütəxəssislər nəsli formalaşdıran alimin çoxsaylı yetirmələri mənsub olduqları elmi məktəbin nailiyyətlərini layiqincə davam etdirmişlər.*

*Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan elmi qarşısında mühüm xidmətlərini və yüksəkixtisaslı kadrların hazırlanması işində səmərəli fəaliyyətini nəzərə alaraq, akademik Əşrəf Hüseynovun 110 illiyinin qeyd olunmasını təmin etmək məqsədi ilə qərara alıram:*

*1. Azərbaycan Milli Elmlər Akademiyası Azərbaycan Respublikasının Təhsil Nazirliyi ilə birgə akademik Əşrəf Hüseynovun 110 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.*

*2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.*












Əşrəf İsgəndər oğlu Hüseynov 20 sentyabr 1907-ci ildə Cəbrayıl rayonunun Əmirvarlı kəndində İsgəndər bəy və Sara xanım Hüseynbəylilərin ailəsində dünyaya gəlib. Akademikin qızı fizika-riyaziyyat elmləri doktoru, professor D.Ə. Hüseynovanın "Atam haqqında xatirələrim" yazısından bir parçanı təqdim etməklə Əşrəf Hüseynovun kimliyi - sosial mənşəyi, nəsil şəcərəsi barədə oxucularımızda ümumi məlumat yaratmaq istərdik: "Onların soyadı mənşəyini atamın ulu babasının adından alır. Bu soyadı daşıyan böyük və adlı-sanlı bir nəslin Cəbrayıl, Hadrut rayonlarında böyük torpaq sahələri olub. Bu torpaqlara elə Hüseynbəylilər torpağı deyərmişlər. Bunlar rayonun aşağı və dağlıq hissələrində yerləşmiş bir neçə böyük və kiçik kəndi əhatə edərmiş. Amma Türkmənçay müqaviləsindən sonra Azərbaycan xanlıqlarının Rusiyanın tərkibinə keçməsi ilə azərbaycanlıların ardıcıl sıxışdırılması və onların torpaqlarına ermənilərin yerləşdirilməsi başlandı. O zaman mənim atamın əcdadlarının əksəri, məhz onun babası Abdulla bəyin qardaşları öz torpaqlarını tərk etdilər. Bəziləri öz kəndlərini satdı, digərləri isə çox yüksək vergini ödəyə bilmədiklərindən, torpaqları əllərindən alındı. Cəbrayıl torpaqlarında ancaq Abdulla bəyin oğulları: İskəndər, Mustafa, Mehdi, Camalxan, Paşa, Zülfüqar, Əhməd və Həsən qaldı. Atam doğularkən Əmirvarlı kəndi hələ babam İsgəndər bəyin mülkiyyətindəydi.

Babam İsgəndər bəy heyrətamiz bir adam olub. Onun xeyirxahlığı və düzgünlüyündən ibrətamiz hekayələr danışarlarmış. Nənələrim Abuzər və Nisənin söylədiklərinə görə, xarici görünüşcə demək olar ki, bütün Hüseynbəylilər çox ucaboy, ağsimalı, alagözlü olmuşlar. 1915-ci ildə ermənilər Əmirvarlıya gedən bütün yolları bağlayaraq, kəndi blokadaya aldıqları zaman sakinlərin bütün azuqəsi - ən əsası isə un qurtarmaq üzrəydi. İsgəndər bəy öz anbarlarını açaraq kəndlilərə gündəlik un, yağ və başqa zəruri məhsullar paylamağı əmr edir. Kənd böyük idi, müəyyən müddət sonra kəndxuda gəlib söyləyir ki, əgər azuqə paylamağa davam edərsək, bu ancaq üç günə çatar, dayandırsaq sizin ailəyə bir ay da yetər. İsgəndər bəy bərk acıqlanıb deyir ki, başqaları ac qalarkən mən yemək yeyə bilmərəm. Sonra Allah kərimdir. Bir neçə gün sonra İran keçidi açılır və babamın dostları azuqə göndərirlər.

Kəndlilər onu çox sevərmiş. Sovet hakimiyyəti qurulduqdan sonra Uyezdin İnqilab Komitəsi nümayəndələri kəndə gələrək kəndin revkomuna sədr seçmək istəyirlər. Onlar nə qədər inandırmağa çalışsalar da ki, bu vəzifəyə əməkçi ailənin nümayəndəsi seçilməlidir, kəndlilər yenə də bir səslə Əmirvarlı kəndinin revkom sədrliyinə İsgəndər bəyi seçirlər. lakin bir neçə ay sonra o, 38 yaşında ürək partlamasından vəfat edir. O vaxt atamın 12 yaşı varmış, artıq 5 yaşında o, anasını itirmişdi. Atamın böyük qardaşı - o, babasının şərəfinə Abdulla adlandırılmışdı - Azərbaycanı tərk edərək Polşada, Fransada yaşamış, 30-cu illərdə Bakıya qayıtmışdı.

Onda bacısı Şahlıq xanım bir neçə aylıqdı. Onun anası - Abuzər nənə atamın xalası qızı, onun digər xalası qızı Nisə xanım isə əmisioğlu Məhəmməd bəyin xanımı - ona ata-anasını əvəz etdilər. Onu hər şeydən qoruyaraq sevgi və şəfqətlə böyütdülər. Mən bütün bunları ona görə yazıram ki, öz ailəsi ilə böyük qürur duyan atamın hansı genləri daşıması aydın olsun. Baxmayaraq ki, o, bu nəslin nümayəndəsi olmasından dolayı böyük çəkçevirlərə məruz qalmışdı, amma heç zaman onlardan imtina etməmişdi. həyatının sonuna kimi şəxsi vərəqəsində mənşəyinə "bəy" yazardı. Atamın anası Sara xanım Əfəndilər kəndindən idi. Atamın babaları əsasən bu kənddən evlənərdilər. Bu kənddə Quranın öyrənilməsi və təfsili ilə məşğul olan ruhani insanlar yaşayırdılar..."

Əşrəf Hüseynov 26 avqust 1980-ci ildə infarktdan vəfat etmiş və II Fəxri Xiyabanda dəfn olunmuşdur.

***

Dekabrın 13-də Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə "Akademik Əşrəf Hüseynovun 110 illiyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından irəli gələrək Əməkdar elm xadimi, akademik Əşrəf Hüseynovun 110 illik yubileyinə həsr edilən toplantı keçirilib.

Əvvəlcə tədbir iştirakçıları akademik Əşrəf Hüseynovun II Fəxri Xiyabanda yerləşən məzarını ziyarət ediblər.

Akademiyanın Əsas binasında baş tutan tədbiri AMEA-nın prezidenti, akademik Akif Əlizadə açaraq akademik Əşrəf Hüseynovun mənalı ömür yolundan, elmi yaradıcılığından, müasir Azərbaycan riyaziyyat məktəbinin yaradıcılarından biri kimi fəaliyyətindən, elmi və təşkilati işlərindən danışıb.

Akademik A.Əlizadə ölkəmizin tarixində ilk riyaziyyatçılardan olmuş akademik Ə.Hüseynovun riyaziyyatın inteqral tənliklər və onların tətbiqləri sahəsində görkəmli mütəxəssis kimi tanındığını bildirib. Onun əldə etdiyi fundamental nəticələrin inteqral tənliklər nəzəriyyəsində dönüş yaratdığını deyən AMEA rəhbəri bu istiqamətdəki tədqiqatlar sayəsində Azərbaycanda beynəlxalq miqyasda qəbul olunan qeyri-xətti sinqulyar inteqral tənliklər məktəbinin yarandığını diqqətə çatdırıb.

Ömrünü elm və təhsilin inkişafına həsr etmiş böyük alimin elmi kadrların hazırlanmasındakı xidmətlərindən danışan akademik Akif Əlizadə Əşrəf Hüseynovun zəngin riyazi irsinin bu gün də elmimizin inkişafına öz töhfəsini verdiyini deyib.

Sonra Azərbaycan Respublikası Təhsil nazirinin müavini Firudin Qurbanov akademikin elmi-pedaqoji fəaliyyətindən danışıb. Akademik Əşrəf Hüseynovun ölkəmiz üçün göstərdiyi xidmətləri təqdirəlayiq qiymətləndirən nazir müavini elm və təhsildə yüksək zirvəyə ucalan istedadlı alimin 80-dən çox elmi əsərin müəllifi olduğunu, rəhbərliyi ilə 30-dan çox fəlsəfə və elmlər doktoru yetişdirdiyini nəzərə çatdırıb.

"Akademik Əşrəf Hüseynovun elmi irsinin aktuallığı" mövzusunda məruzəylə çıxış edən Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin akademik-katibi, akademik Nazim Məmmədov alimin inteqral tənliklər və onların riyazi fizika məsələlərinə tətbiqi sahəsində tanınmış alim olduğunu vurğulayıb. Bildirib ki, harmonik funksiyanı ümumi şəkildə inteqral tənliklər sisteminə gətirməklə həllinin varlığının isbatı üsulunu verən akademik Əşrəf Hüseynovun qeyri-xətti sinqulyar tənliklər nəzəriyyəsi istiqamətindəki işləri ona böyük şöhrət qazandırıb.

Akademik Əşrəf Hüseynovun tədqiqatlarının aktuallığından söz açan natiq qeyd edib ki, inteqral və sinqulyar inteqral tənliklərin təqribi həll üsullarının yaradılması ilə xalq təsərrüfatı sahəsində, eləcə də neft və qaz yataqlarının istismarında bir sıra məsələlər öz həllini tapıb. Akademik Nazim Məmmədov Azərbaycanda riyaziyyat elminin bir çox sahələrinin formalaşmasında alimin uzun illər rəhbərlik etdiyi seminarın mühüm rol oynadığını söyləyib.

Sonra İdarəetmə Sistemləri İnstitutunun direktoru, akademik Telman Əliyev"Akademik Əşrəf Hüseynov Azərbaycanda kibernetika elmi məktəbinin yaradıcısıdır" mövzulu məruzəylə çıxış edib. Məruzəçi mərhumun Azərbaycanda kibernetika, idarəetmə sistemləri istiqamətindəki məhsuldar fəaliyyətindən danışıb, akademik Əşrəf Hüseynovun AMEA-da çalışdığı müddətdə təkcə elmimiz üçün deyil, iqtisadiyyatımız üçün də mühüm xidmətlərindən söz açıb: "O, Kibernetika İnstitutunun direktoru vəzifəsinə təyin edildikdən sonra müəssisənin elmi istiqamətlərini müəyyənləşdirmək, elmi məktəblər yaratmaq, elektron hesablama maşınlarını elmi tədqiqat proseslərində istifadə etmək, ölkənin qarşısına çıxan iqtisadi problemlərin həllinin elektron maşınlarda həyata keçirilməsini təmin etmək kimi aktual və çox çətin problemlərin həllinə nail olub". Alimin instituta rəhbərlik etdiyi illəri xatırlayan akademik Telman Əliyev o zaman institutun təkcə respublikada deyil, Sovet İttifaqı miqyasında tanınmış müəssisəyə çevrildiyini deyib.

Tədbirdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov "Akademik Əşrəf Hüseynovun elmi-təşkilati fəaliyyəti" haqqında məruzə edib. Misir Mərdanov akademik Əşrəf Hüseynovun həyatının keşməkeşli anları və tələbəlik illəri, elmi yaradıcılığı və pedaqoji fəaliyyəti barədə çıxış edib.

Yubiley tədbirində akademik Əşrəf Hüseynovun pedaqoji fəaliyyəti haqqında çıxış edən Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin dekanı, akademik Məhəmməd Mehdiyev, Riyaziyyat və Mexanika İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vaqif Quliyev, BDU-nun Funksiyalar nəzəriyyəsi və funksional analiz kafedrasının müdiri, professor Əli Əhmədov, Neft-Kimya Prosesləri İnstitutunun direktoru, akademik Vaqif Abbasov alimlə bağlı xatirələrini bölüşərək Əşrəf Hüseynovun adının ölkəmizin hər yerində daim böyük hörmət və ehtiramla anıldığını vurğulayıb. Cəbrayıl rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev çıxışında rayon rəhbərliyi və ictimaiyyəti adından yubileyin təşkilatçılarına minnətdarlıq duyğularını çatdırıb.

Sonda görkəmli akademikin ailə üzvləri adından tədbirin təşkilatçılarına minnətdarlıq bildirilib.

*Milli Qəhrəmanlarımız*

# Onun dünyasını yaşadırlar...



Vüqar Əsgərovun "Azərbaycanın Milli Qəhrəmanları" ("Dərələyəz -M", 2010) kitabında Əkbərov Akif Abbas oğlu haqqında oxuyuruq:

2 fevral 1952- ci ildə Cəbrayıl rayonunun Balyand kəndində anadan olmuşdur. 1969- cu ildə 2 saylı Beyləqan şəhər orta məktəbini bitirmişdir. 1970- ci ildə ordu sıralarına çağırılmışdır. 1972- ci ildə ordudan tərxis olunur. 1974-cü ildə Beyləqan rayon Daxili İşlər Şöbəsində polis nəfəri kimi fəaliyyətə başlayıb. Sonuncu iş yeri Polis şöbəsinin dövlət avtomobil müfəttişliyi bölməsi olur. Polis starşinası Akif Əkbərov həmin bölmədə yol patrul xidməti müfəttişi vəzifəsində işləyirdi.








1991- ci il... Avqustun 5-i... Beyləqan rayon Polis Şöbəsinin bir qrup əməkdaşı Kəlbəcər rayonunun "Sarı yer" yaylağındakı mülki şəxslərin təhlükəsizliyini təmin etmək üçün oraya ezam olunur.Polislərin arasında Akif Əkbərov da var idi. Erməni quldurları tez-tez yaylaqlara qəfil basqınlar etdiyindən, polislərimiz hər zaman sayıq olmağa çalışırdılar.

Avqustun 12-si... Ermənilər Cermuq şəhəri tərəfdən "Sarı yer" yaylağına hücuma keçirlər. Əhalini qorumaq üçün polis işçilərimiz döyüşə girirlər. Akif elə döyüş mövqeyi tutmuşdu ki, ermənilər başlarını qaldırmağa belə macal tapmırdılar. Təxminən 6 saat davam edən bu döyüşdə Akif Əkbərov xüsusilə fərqlənir. Düşmənin xeyli canlı qüvvəsi məhv edilir. Lakin qəfil düşmən gülləsi Akifdən də yan keçmir. O, qəhrəmancasına həlak olur.




Ailəli idi. Beş övladı yadigar qalıb. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992- ci il tarixli 264 saylı Fərmanı ilə Əkbərov Akif Abbas oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Beyləqan rayonunda dəfn edilmişdir. Büstü qoyulmuşdur. Beyləqan rayonundakı küçələrdən biri onun adını daşıyır.

Bəli, Milli Qəhrəmanlarımız haqqında ümumi məlumatları özündə əks etdirən bu kitabda Akif Abbas oğlu Əkbərovun barəsindəki yuxarıdakı informasiyalar mənim, hər şeydən öncə, "Xudafərin" qəzetinin baş redaktoru kimi üstümə müqəddəs bir missiya qoydu: Soraqlaşıb, şəhidin ailə üzvlərilə görüşməli və yazmalıyam.

**(Davamını növbəti sayımızda izləyin)**







# Həmyerlimizin fərdi sərgisi

Dekabrın 5-də Azərbaycan Rəssamlar İttifaqının (ARİ) Vəcihə Səmədova adına sərgi salonunda tanınmış rəssam, heykəltəraş Rafiq Quliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş "Mən azərbaycanlıyam" adlı fərdi sərgisinin açılışı oldu.

Tədbiri giriş sözüylə ARİ-nin katibi, Xalq rəssamı Ağəli İbrahimov açaraq rəssamın həyat və yaradıcılığı haqqında danışdı. Bildirdi ki, Rafiq Quliyev Cəbrayıl rayonunun Quycaq kəndində anadan olub. İxtisas təhsilini öncə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində, sonra isə indiki Mədəniyyət və İncəsənət Universitetində alıb. Əmək fəaliyyətinə Mədəniyyət və Turizm Nazirliyinin Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzində başlayıb, hazırda burada Elmi araşdırmalar şöbəsinin müdiri vəzifəsində çalışır.







Mədəniyyət və Turizm Nazirliyinin Dekorativ və tətbiqi sənət sektorunun müdiri Qalib Qasımov çıxışında Rafiq Quliyevin həm rəssam, həm də mədəniyyət sahəsində çalışan şəxs kimi keyfiyyətlərindən bəhs etdi.

Mədəniyyətşünaslıq üzrə Elmi-Metodik Mərkəzin direktoru Asif Usubəliyev rəssamın kollektivdəki fəaliyyətini və yaradıcılığını yüksək dəyərləndirdi.

ARİ-nin məsul katibi Rafiq Kərimov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, Cəbrayıl Rayon İcra Hakimiyyəti başçısının birinci müavini Arif Fərzəliyev, professorlar Asif Rüstəmli, Vidadi Xəlilov və başqaları rəssam haqqında ürək sözlərini söylədilər, onu sərgi münasibətilə təbrik etdilər.

Sonda çıxış edən rəssam tədbirə gələn hər kəsə minnətdarlığını ifadə etdi.

Sərginin açılışından sonra iştirakçılar əsərlərlə tanış oldular. Ekspozisiyada rəssamın müxtəlif janrlarda yağlı boya ilə çəkdiyi 80-ə yaxın əsəri nümayiş olunur.

Qeyd edək ki, R.Quliyev Azərbaycan təsviri sənətinin tədqiqinə həsr olunmuş dörd kitabın müəllifidir. O, həm də heykəltəraşdır. Qarabağ müharibəsi şəhidlərinin, Milli Qəhrəmanlarımızın büstlərini hazırlayıb. Rəngkarlıq, qrafika, dekorativ-tətbiqi sənət və heykəltəraşlıq əsərləri beynəlxalq sərgilərdə nümayiş etdirilən rəssam bir sıra festivalların laureatı adına və mükafatlara layiq görülüb.

**S.Qaliboğlu**

*Rafiq Quliyev 1956-cı ildə Cəbrayıl rayonunun Quycaq kəndində anadan olmuşdur. Bu gün təsviri sənət məkanında rəngkar və heykəltəraş kimi tanınan Rafiq Quliyev ixtisas təhsilini Bakıdakı məşhur "Əzimzadə məktəbi" ndə almışdır. Həmin təhsil ocağını fərqlənmə diplomu ilə bitirəndən sonra o, 1980-ci ildə təyinatla Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki Mərkəzində (indiki Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz- MEMM) işə başlamışdır. Bu gün onun həmin müəssisədə "İncəsənət bilikləri" şöbəsinin müdiri vəzifəsində çalışması da onun Azərbaycanda xalq yaradıcılığının öyrənilməsi və təbliği sahəsində apardığı səmərəli fəaliyyətə verilən dəyərin əyani nümunəsidir. Sonradan Azərbaycan Dövlət İncəsənət İnstitutunda ali təhsil alan Rafiq Quliyev ötən illərdə respublikanın müxtəlif güşələrində yaşayan istedadları üzə çıxarmaqla yanaşı özü də yaradıcılıqla məşğul olmuş, rəngkarlıq, qrafika və heykəltəraşlıq sahələrində yaddaqalan əsərlər yaratmışdır. Əsərlərin vaxtaşırı müxtəlif miqyaslı yerli və xarici sərgilərdə uğurla göstərilməsi də nəticəsiz qalmamışdır. Belə ki, hazırda o, Azərbaycan Rəssamlar İttifaqının üzvü olmaqla bərabər, həm də neçə-neçə Beynəlxalq festivalın laureatıdır. Yaradıcılığını ictimai fəaliyyətlə vəhdətdə davam etdirən Rafiq Quliyevin Azərbaycan Respublikası Ağsaqqallar Şurasının üzvü olması da onun həyatda nümayiş etdirdiyi vətəndaşlıq mövqeyinə göstərilən ehtimadın ifadəsidir.*

*Onun Azərbaycan təsviri sənətinin problemlərindən bəhs edən tədqiqatları da ictimayyət tərəfindən rəğbətlə qarşılanmışdır. Rafiq Quliyevin "Azərbaycan incəsənətində rəmzi-bədii şərhə yüksəlmə" (2007) və "Təsviri sənətdə insan dünyası" (2009) kitablarını sənətşünaslığımıza layiqli töhfə hesab etmək olar. İnanırıq ki, onun yenı tədqiqatının nəticəsi olan "Azərbaycan təsviri sənətində tarix və şəxsiyyət" kitabı da sənətsevərlərin və mütəxəssislərin marağına səbəb olacaqdır.*

# Mingəçevir yazarları Cocuq Mərcanlıda

Dekabr ayının 6-da Azərbaycan Yazıçılar Birliyinin Mingəçevir bölməsində təmsil olunan yazarların bir qrupu Mingəçevir Turizm Kollecinin nümayəndələri və "Mingəçevir" qəzetinin əməkdaşları ilə birlikdə Cəbrayıl rayonunun işğaldan azad edilən Cocuq Mərcanlı kəndinə gedərək yerli sakinlərlə görüşmüşlər. Mingəçevirli qonaqlar əvvəlcə ötən ilin Aprel döyüşlərindən sonra ölkə prezidenti İlham Əliyevin tapşırığı ilə yenidən qurulan evlərdə yaşayan ailələrlə görüşüb söhbət etmişlər. Cəbrayıl rayon İcra Hakimiyyətinin Cocuq Mərcanlı kəndi üzrə ərazi nümayəndəsi Xanlar Zeynalov, son iyirmi dörd il ərzində kəndi heç vaxt tərk etməyən və ölkə rəhbəri İlham Əliyevin Cocuq Mərcanlı kəndinə səfəri zamanı "Əmək" ordeni ilə təltif olunan Oktay Həziyev kənddə tikilən evlərin və yerli sakinlər üçün yaradılan yüksək yaşam şəraitindən söz açaraq bildirmişlər ki, əlavə olaraq tikintisi başa çatdırılan və yüz 100 ailə üçün nəzərdə tutulan evlərə də yaxın günlərdə Cocuq Mərcanlıdan olan ailələr köçürüləcəkdir.

Mingəçevili qonaqları yerli sakinlərə təqdim edən Azərbaycan Yazıçılar Birliyi Mingəçevir bölməsinin sədri, əslən Cəbrayıldan olan İsmayıl İmanzadə həmyerliləri ilə görüşdən məmnun olduğunu bildirərək, "mənim dünyaya göz açdığım Böyük Mərcanlı kəndi və rayonun digər yaşayış məntəqələri iyirmi dörd ildən bəri düşmən tapdağı altındadır. Ötən ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun düşmənə ibrət dərsi verməsi bir daha sübut etdi ki, ölkə prezidenti İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində işğala məruz qalan bütün torpaqlarımız da inşallah tezliklə düşmən pəncəsindən xilas ediləcəkdir"-dedi.

Mingəçevir Turizm Kollecinin direktoru, iqtisad elmləri doktoru Əyyub Əyyubov "Lələ" təpədə əzəmətlə dalğalanan üçrəngli Azərbaycan bayrağının bütövlükdə Qarabağın bütün yaşayış məntəqələrində də dalğalanacağı günün uzaqda olmadığını əminlik hissiyə söylədi və Cocuq Mərcanlını yurdun yenilməz qalasına çevirən Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan əsgərinin yenilməz iradə sahibi olduğunu vurğulayaraq yenidən doğma məskənlərinə qayıdan kənd sakinlərə uğurlar arzuladı.

Yazarların Cocuq Mərcanlı kənd orta məktəbinin pedaqoji kollektivi və şagirdləri ilə keçirdikləri görüşlər də yaddaqalan oldu. AYB Mingəçevir bölməsinin sədri İsmayıl İmanzadə tanınmış söz adamlarının əsərlərinin yer aldığı 80 nüsxə kitabı məktəbin kitabxanasına hədiyyə verdi. Yazarlardan Elşən Əzim, Zümrüd Rəhimova, Bəhman Gülövşəli və Məmməd Mərzili çıxış edərək öz əsərlərindən nümunələr söylədilər. Mingəçevir Turizm Kollecinin direktoru Əyyub Əyyubov ayrı siniflərdə oxuyan uşaqlara hədiyyələr təqdim etdi. "Mingəçevir" qəzetinin baş redaktoru Mirsədi Daşdəmirov,qəzetin əməkdaşlarından Mətanət Məmmədova, İlahə İsmayılova və İslam Şirinov, "Tumurucuq" qəzetinin təmsilçisi Esmira Hidayətova ürək sözlərini dilə gətirdilər. Məktəbin direktoru Zamin Həziyev, tarix müəllimi İsmət Əbiloğlu, Oqtay Həziyev və Cəbrayıl rayon İH-nin nümayəndəsi Xanlar Zeynalov yerli sakinlər adından qonaqlara minnətdarlıqlarını bildirdilər.

Sonda kənddəki məscidlə tanış olan və burada düşmən tapdağı altda qalan torpaqlarımızın azad edilməsi diləyi ilə dualar edən yazarlar yerli sakinlərlə, o cümlədən müəllim və şagirdlərlə birlikdə xatirə şəkilləri çəkdirdilər.

**"Xudafərin"**

6

№ 15 - 16 (6791-6792) 29 dekabr 2017-ci il

"Xudafərin harayından qalan mən!.."

XUDAFƏRİN

# Cinayət qanunvericiliyinin təkmilləşdirilməsi hüquqi islahatların növbəti mərhələsidir

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə möhkəm təməl yaratmışdır.

Dövlət müstəqilliyini bərpa etdikdən sonra hüquqi, sosial və iqtisadi sahədə islahatların həyata keçirilməsi, insan hüquqları sahəsində strateji əhəmiyyətli sənədlərin qəbul olunması insan hüquqlarının müdafiəsində yeni, səmərəli təcrübə formalaşdırmışdır. Zaman keçdikcə hər yeni inkişaf mərhələsi insan hüquqlarının təmin olunması sahəsində yeni məqsədlər və prioritetlər doğurur ki, bu da yeni islahatların zəruriliyini gündəmə gətirir.

Ona görə də Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" 2017-ci il 10 fevral tarixli Sərəncamı dövlət başçısının humanist siyasətinin növbəti təzahürü olmaqla dövlət idarəçilik sisteminin müasirləşdirilməsi və məhkəmə-hüquq islahatları sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi cinayət təqibi və cəzaların icrası sahələrində hüquq islahatlarının yeni mərhələsi olmuşdur.

Qeyd olunan Sərəncam da insan hüquqlarının effektiv təmini istiqamətində həyata keçirilən islahatların davamlılığı baxımından yeni mərhələ oldu, mahiyyətcə hərtərəfli olmaqla, özündə insan hüquq və azadlıqlarının əsas prinsiplərini, azadlıq hüququnun təmini baxımından isə strateji, yeni və kompleks yanaşmaları, əsaslı dəyişiklik və əməkdaşlığı özündə ehtiva edir. Həyata keçirilən hüquqi islahatlar insan hüquqlarının genişləndirilməsi baxımından həbs və ya məhkum olunmuş şəxslərin hüquqlarını əhatə etməklə dövlətin sosial məsuliyyətliliyini daha da artırır. Cinayət törətmiş, hüquq pozuntusuna yol vermiş şəxsin azadlıq hüququ ilə bağlı məhdudiyyətlərin tətbiq edilməsinin qarşısının alınması, bu istiqamətdə cinayət təqibi və cəza icra siyasətinin humanistləşdirilməsi, şəxsin cəmiyyətdən təcrid edilməsi təcrübəsindən getdikcə imtina edilməsi sahəsində mövcud çətinliklər və zərurət məlum Sərəncam əsasında önə çəkilməklə yanaşı, icrası da dövlətin siyasətinin tərkib elementinə çevrilir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin insan hüquqlarının, o cümlədən məhkumların hüquqlarının daha etibarlı təmin olunmasına həssas münasibətinin növbəti təzahürü olan və proqram xarakteri daşıyan bu Sərəncam, eyni zamanda, strateji hədəfləri müəyyən etməklə məhkəmə, ədliyyə, prokurorluq və istintaq orqanları üçün bir "yol xəritəsi"dir.

Sərəncamdakı məqsədlərdən biri də böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs və azadlıqdan məhrumetmə tədbirlərinin tətbiqinin məhdudlaşdırılmasıdır. Belə ki, bir sıra hallarda böyük ictimai təhlükə törətməyən cinayətlərə görə şəxslərin həbs edilməsinə rast gəlinir. İstintaq və məhkəmə orqanlarına tövsiyə edilib ki, qətimkan tədbirlərinin seçilməsi məsələsinə baxılarkən hər bir şəxs barəsində ilk növbədə həbslə bağlı olmayan qətimkan tədbirlərinin tətbiqi mümkünlüyünü araşdırsınlar.

Bundan başqa, cəzaların icrası və qətimkan tədbirlərinin tətbiqi zamanı elektron nəzarət vasitələri tətbiq olunacaq. Müasir dövrdə texnoloji nailiyyətlər insanı həbs etmədən onun davranışına tam nəzarəti həyata keçirməyə imkan verir və dünyanın bir sıra ölkələrində penitensiar sahədə elektron nəzarət sistemləri geniş tətbiq edilir. Elektron nəzarət vasitələrinin tətbiqi - məhkumun və ya təqsirləndirilən şəxsin yerləşdiyi yeri müəyyən etməyə və onun yerdəyişmələrini qeydə almağa imkan verən texniki vasitənin həmin şəxsin üzərində yerləşdirilməsindən ibarətdir.

Bu sərəncamın icrası ilə azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzaların icrasına effektiv nəzarət təmin ediləcək, şəxsi cəmiyyətdən təcrid etmədən alternativ cəza tədbirlərinin tətbiqi genişləndiriləcək, cinayət təqibi və cəzaların icrası zamanı qanuna zidd əməllərə yol verilməməsi, korrupsiya və vəzifədən sui-istifadə hallarına qarşı mübarizənin gücləndirilməsi üçün müvafiq tədbirlər görüləcək.

Sərəncama əsasən yaradılması nəzərdə tutulan Probasiya xidməti azadlıqdan məhrum etmə ilə əlaqədar olmayan cəzalara (ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması və s) məhkum edilmiş, habelə şərti məhkum edilmiş və ya cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş şəxslərə nəzarət edilməsi sahəsində ixtisaslaşmış orqan olacaqdır. Məhz bu sahədə ixtisaslaşmış qurumun yaradılması qeyd edilən cəzaların effektiv icrasını təmin etmək, işin təşkilini keyfiyyətcə yeni səviyyəyə qaldırmaq, məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemini tətbiq etmək, bu fəaliyyətdə müasir informasiya-kommunikasiya texnologiyalarının nailiyyətlərindən daha çox istifadə etməyə imkan verəcəkdir.

Cəza siyasətinin humanistləşdirilməsi məqsədilə proqram xarakteri daşıyan qeyd olunan Sərəncamda cinayətlərin, xüsusilə iqtisadi fəaliyyət sahəsində cinayətlərin dekriminallaşdırılması, cinayət-hüquq siyasətinin liberallaşdırılması, azadlıqdan məhrum etmə ilə yanaşı alternativ cəzaların tətbiqinin genişləndirilməsi, mövcud alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsi, cinayətin ictimai təhlükəliliyi amilinə diqqət artırılması, maddi ziyanla bağlı olan hallarda vurulmuş ziyan tamamilə ödənildikdə həbslə əlaqədar olmayan cəza tədbirinin tətbiq edilməsi, azadlıqdan məhrum etməyə alternativ cəzaların təyin edilməsi əsaslarının müəyyən olunması, azadlıqdan məhrum etmə cəzasının çəkilməmiş hissəsinin daha yüngül cəza ilə əvəz edilməsi, şərti olaraq vaxtından əvvəl azad etmə və şərti məhkum etmə institutlarının daha geniş tətbiq edilməsi, həbsin alternativ qətimkan tədbirləri ilə əvəz edilməsi qaydasının sadələşdirilməsi, böyük ictimai təhlükə törətməyən və az ağır cinayətlərə görə həbs qətimkan tədbirinin seçilməsi əsaslarının və tətbiqinin daha da məhdudlaşdırılması, müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqi üçün kompleks institusional tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Həmin Sərəncamın icrası ilə əlaqədar qəbul olunmuş "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 20 oktyabr 2017-ci il tarixli Qanunu ilə Azərbaycan Respublikası Cinayət Məcəlləsinə edilmiş dəyişikliklər cinayətlərin, xüsusilə mülkiyyət əleyhinə və iqtisadi fəaliyyət sahəsində bəzi cinayətlərin dekriminallaşdırılmasını, cinayətlərin sanksiyalarına azadlıqda məhrum etməyə alternativ cəzaların əlavə olunmasını, alternativ cəzaların tətbiqi əsaslarının təkmilləşdirilməsini, bu məqsədlə cinayət Məcəlləsinə yeni cəza növü kimi-məhkumun cəmiyyətdən tam təcrid olunmadan yaşayış yeri üzrə nəzarət altında saxlanılmasından ibarət olan azadlığın məhdudlaşdırılması cəzasının daxil edilməsini, zərərçəkmiş şəxslə barışıq institutunun daha da təkmilləşdirilməsini və digər məsələləri əhatə etmişdir.

Qeyd olunan Qanuna əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə ümumilikdə 300-ə yaxın dəyişiklik edilərək, 18 cinayət əməli dekriminallaşdırılmış, 24 cinayətə görə zərərçəkmiş şəxslə barışma və ziyanın ödənilməsi, 25 cinayətə görə ziyanın ödənilməsi və dövlət büdcəsinə ödəniş edilməsi, 2 cinayətə görə məhkəmə qərarının icrası və ya əmək müqaviləsinin bağlanması şərti ilə cinayət məsuliyyətindən azad etmə müəyyən olunmuş, 1 cinayətə görə narkomanlıq xəstəliyinə düçar olmuş təqsirləndirilən şəxsin tibbi xarakterli məcburi müalicə tədbirlərinin tətbiqindən sonra sağaldıqda cinayət məsuliyyətindən azad edilməsi, 152 cinayətin sanksiyasına azadlıqdan məhrum etməyə alternativ cəzaların əlavə edilməsi və 36 cinayətə görə azadlıqdan məhrum etmə cəzasının yüngülləşdirilməsi nəzərdə tutulmuşdur.

Qanuna əsasən azadlığın məhdudlaşdırılması cəzası ilə bağlı müddəaların həmin cəzanın icrası və elektron nəzarət vasitələrinin tətbiq edilməsi qaydalarının müəyyən edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsində ediləcək dəyişikliklərlə eyni gündə, narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad etməyə dair müddəaların müvafiq icra hakimiyyəti orqanının narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minməsi nəzərdə tutulmuş, Qanunun digər müddəaları isə 2017-ci il dekabrın 1-dən qüvvəyə minmişdir.

Həmçinin qeyd olunan qanuna əsasən cinayət hesab olunmayan əməllərə görə bu Qanun qüvvəyə minənədək məhkum edilmiş və hazırda cəzasını çəkən şəxslər cəzadan azad olunurlar. Onlar, habelə bu Qanunla cinayət hesab olunmayan əməllərə görə əvvəllər məhkum edilmiş və cəzasını çəkmiş şəxslər məhkumluğu olmayan hesab edilir.

**Cəbrayıl rayon prokuroru,**
**ədliyyə müşaviri**
**Maarif Hüseynov**



# Gənc həkim uğurlu yolda

Mən onunla iş otağında görüşdüm. Mehribancasına qarşıladı, səmimi söhbət etdik. Heç elə bil ki, indicə tanış olmamışdıq, neçə illərmiş ki, bir-birimizi tanıyırıqmış kimi . Söhbətimiz əsnasında ona gələn telefon zənginə rus dilində verdiyi səlis cavabları da məni heyrətləndirdi. Nə cür təmiz, aksentsiz danışırdı. Maraqlanıb öyrəndim ki, 18 oktyabr 1986- cı ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində anadan olan Aynur İmanovanın uşaqlığı elə orada keçib. 7 yaşı olanda-1993- cü ilin iyununda atasıgil Bakı şəhərinə köçür. Elə həmin ilin sentyabrında da Aynur Bakıda 1- ci sinfə gedir. Bütün dərslərini əla qiymətlərlə oxuyan qız sinifdən-sinfə keçdikcə gələcəkdə hansı peşənin sahibi olması haqda da özlüyündə cavablar axtarır. Artıq yuxarı siniflərdə oxuyanda qərarını dəqiqləşdirmişdi. Həkim olmağı, insanların sağlamlığı keşiyində durmağı, yer üzünün zinəti sayılan insana xidmət etməyi özünə şərəfli bir peşə edəcəyini düşünmüşdü... Budur, illər nə tez gəlib keçdi, qayğısız uşaqlıq çağları, şən məktəb illəri geridə qaldı.

Aynur Fərda qızı İmanova Bakıda fəaliyyət göstərən 34 saylı Ağdam şəhər tam orta məktəbini bitirib, sənədlərini ali məktəbə verdi. Müvəffəq bal topladı, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinin müalicə-profilaktika fakültəsinə qəbul oldu. Artıq o, qəlbindəki istəyinə çatmışdı, tələbə idi, gecəsini gündüzünə qatdı, həkimliyin sirlərindən xəbər verən dərslik kitablarını, əlavə ədəbiyyatları yorulmadan oxudu, sabahın yaxşı həkimi, peşəsinin kamil bilicisi olmaq üçün bütün zehnini, düşüncəsini işlətdi. Bilirdi ki, hər bir sahədə qazanılacaq uğur elmin-təbabət elminin sirlərinə incəliklərinə qədər vaqif olmaqdan gedir.

2010- cu ildə universiteti bitirən Aynurun adına bir şərəfli peşə adı da qoşuldu: həkim adı.Təyinatla Milli Onkologiya Mərkəzinə interna- həkim vəzifəsində işləməyə göndərildi. 2011- ci ildən isə Aynur həkim Onkoloji Mərkəzdə həkim-radioloq vəzifəsində çalışır. İnsanlara nümunəvi tibbi xidmət göstərir. Bu ixtisas üzrə Azərbaycanımızın bir sıra şəhər və rayonlarında Səyyar Diaqnostik Skrining proqramında iştirak edən gənc həkim öz sənətinin əsl vurğunudur. Səyyar Diaqnostik Maşınlarda yerli camaata tibbi xidmət göstərmək məncə, təkcə öz həkimlik peşəsini icra etmək yox, həm də ki, bu peşəyə vurğunluğunun göstəricisi olub, insanların sağlam yaşayışı yolunda patriotizm nümayiş etdirməkdir. Bəli, biri var öz sənətinə uyğun olaraq işləmək, fəaliyyət göstərmək, biri də var bu sənətə aludəçiliklə vətəndaşların sağlamlığı naminə səyyari yolla çalışıb-vuruşub fədakarlıq göstərmək. Aynur Fərda qızı bir gənc həkim kimi qaynartəbiətlilik nümayiş etdirir, əhaliyə nümunəvi tibbi xidmət göstərməkdən xüsusi zövq alır. Çünki o, orta məktəb illərində ürəyində bəslədiyi həkim olmaq arzusuna çatıb və artıq bu istəyini praktik olaraq öz həyati fəaliyyətində gerçəkləşdirdiyinin fərqinə varır. Axı doğrudan da, yer üzündə insana və insanlığa xidmətdən yüksək və şərəfli iş nə ola bilər ki? Əgər belə bir sənətin sahibisənsə, onda həm də dünyanın ən bəxtəvərlərindən birisən. Aynur həkimin əsas həyat idealı məhz belədir və belə nəcib bir qayə üstündə kökləndiyindəndir ki, o öz işindən-peşəsindən ilham alır, işinə birə beş qat həvəs göstərir və bundan yetərincə qürur duyğusu keçirir.

Bəli, xoşbəxt həm də o insandır ki, sevdiyi sənətin ardınca gedir və o peşəyə layiqincə yiyələnə bilir.

Qeyd edim ki, Azərbaycanda həkimlik sənətinin tarixi çox qədimdir, xalq təbabətinin qaynağı isə ondan da qat-qat qədimlərə gedib bağlanır. Həkimliyin türk xalqlarında türkəçarəçilikdən başlandığını yada salaq.Bundan başqa, xalq düşüncəsində həkimliyin ümumiləşmiş obrazı olan Loğman adında daşınan məna çalarlarına diqqət yetirsək, görərik ki, Loğman həkim, təbib, filosof kimi mühüm əlamətlərin də daşıyıcısıdır. Eyni zamanda o, Allaha ən yaxın olan bir müdrik bilicidir.

Loğman həkimdən"Sən bu yüksək dərəcəyə nə cür çatmısan? " soruşulanda, o:"Doğru sözlü olmaq, əmanəti yerinə yetirmək, lüzumsuz söz və işi tərk etməklə" cavabını verib. İnsanlar ondan nəsihət istədikdə isə o, belə nəsihət elədi:"Öncəkilərin və sonrakıların elmləri ilə əməl edilə bilməsi üçün 8 şeyə diqqət eləmək hər kəsə lazımdır. Dörd zamanda dörd şeyi qorumaq lazımdır: Namazda könlü, xalq arasında dili, yeyib-içmədə boğazı, bir kəsin evinə girdikdə isə gözü qorumaqdır. İki şeyi yaddan heç vaxt çıxartmamalı:Bunlar Allah-təalanın böyüklüyü və ölümdür. İki şeyi də tamamilə unutmağa çalışmalı: Bunlar da birinə edilən yaxşılıq ilə dost və yaxınlardan görülən pislikdir".

Göründüyü kimi, xalqımızın təfəkküründə Loğman həkimin timsalında həkim sadəcə cismin müalicəsi ilə məşğul olan şəxs kimi deyil, eyni zamanda mənəvi rütbənin daşıyıcısı kimi də, müdriklik mücəssəməsi kimi də anlaşılır.

Həkimlik sənətinin bu cür məsul və ağır yük olduğunu dərindən anlayan Aynur həkim bir gənc kadr kimi öz ixtisası üzrə bilik dairəsinin genişləndirilməsi məqsədilə 2013- cü ildə Türkiyənin Ankara və İstanbul şəhərlərində bir aylıq və üç aylıq müddətlərdə ixtisasartırma kurslarında da iştirak etmişdir. Lakin bunlarla kifayətlənməyən gənc qız elmi fəaliyyət sahəsində də müəyyən uğurlar qazanıb. Belə ki, o, elmi jurnallarda məqalə, tezis, konfrans materialları ilə də vaxtaşırı çıxışlar edir. Bu zaman o, öz elmi həmkarları ilə də birləşib birgə elmi məqalələr də yazır. Belə ki, 2011-ci ildə yazdığı "Erkən yaşda süd vəzisi xərçəngi" məqaləsini S.S. Vətənxa və A.B. Gəncəliyeva ilə, 2016- cı ildə yazdığı "Palpasiya olunmayan süd vəzi törəmələrinin BI-RADS klassifikasiyasına görə qiymətləndirmə və nəticələri " məqaləsini isə S.E. Rəhimzadə, S. S. Vətənxa və S.F. İsayeva ilə birgə işləmişdir.

Bundan başqa, A. F. İmanova "Azərbaycan populyasiyasında III və IV mərhələdə süd vəzi xərçəngində sümüklərdə metastatik dəyişikliklərin rast gəlmə tezliyi" ( 2014) adlı tezislə, "Azərbaycanda 2 tip şəkərli diabet olan şəxslərdə həyat keyfiyyətinin və depressiyanın öyrənilməsi" mövzusunda məruzə ilə konfransda(2017) çıxış etmişdir.

Habelə o, 2017- ci ildə IV Beynəlxalq psixologiya konfransında Neyrologiya və Nitq pozuntularına həsr olunmuş tibb konfransında, Milli Psixologiya Forumunda, Humanistik psixodrama-nəzəri və praktika seminarında da özünəməxsus erudisiya ilə məruzə və çıxışlar etmişdir.

Aynur Fərda qızı psixiatriya sahəsində də elmi fəaliyyətlə məşğuldur. Belə ki, 2015-ci ildə Bakı Dövlət Universitetində klinik psixologiya ixtisası üzrə qiyabi dissertanturaya daxil olub. BDU-nun Sosial elmlər və psixologiya kafedrasında professor Fuad Nadir oğlu İsmayılovun elmi rəhbərliyi ilə"Xroniki xəstələrdə münasibət tipinin müdafiə mexanizmlərinə təsiri" mövzusunda namizədlik dissertasiyası üzərində işləyir. İnanırıq ki, artıq iki ildir ki, üzərində işlədiyi dissertasiya işini Aynur xanım yaxın gələcəkdə uğurla yazıb tamamlayacaq və Cəbrayıllı alimlərin sırasında özünə nüfuzlu ad-san qazanacaq, respublika miqyasında, eləcə də dünya əhəmiyyətli maraqlı elmi uğurlara imza atacaqdır.

Sənə tükənməz yaradıcılıq enerjisi və həkimlik fəaliyyətində çox böyük nailiyyətlər arzulayırıq, Aynur xanım!

**Şakir Albalıyev,**
**fəlsəfə doktoru, dosent**

# Azərbaycanımız sevilir, öyrənilir...





Noyabrın 29-da Suraxanı rayonundakı şəhid Dilavər Məmmədzadənin adını daşıyan 232 saylı tam orta məktəbində "Azərbaycanımızı tanıyaq və tanıdaq" layihəsi üzrə tədbir keçirildi.

Tədbirdə YAP Səbail rayon Mərkəzi Ərazi təşkilatının sədri Məhəmmədəli Məmmədzadə, əslən Cəbrayıldan olan alim Səttar Allahverdiyev, Qarabağ müharibəsi əlili Mübarək Sevdimalıyev, Cəbrayıl rayon İcra Hakimiyyətinin əməkdaşları Vilayət Cabbarov, Rasim Həsrətov və başqaları da qonaq qismində iştirak edirdilər.

Məktəbin direktoru Məhluqə Əzizova ilə söhbət vaxtı məlum oldu ki, bu, bir məktəbdaxili layihədir ki, noyabrdan başlanıb, mayda sona yetəcək. Məktəbin ibtidai sinif müəllimi Fatma Qafarovanın təklifi ilə bu tədbir İmişli, Beyləqan və Cəbrayıl rayonlarını məktəblilərə tanıtmağa həsr olunub. Məqsəd isə şagirdlərdə həmin rayonların tarixi, ərazisi və s. haqqında ümumi təsəvvür yaratmaqdır.







Söhbət əsnasında Məhluqə müəllimə onu da bildirdi ki, məktəbdə kiçik Akademiya da yaradılıb və gələcəkdə bu kimi tədbirlərin səyyari olması, başqa məktəblərdə də nümayiş etdirilməsi nəzərdə tutulur. İstəyirik ki, məktəblilərdə özlərinə qarşı inam hissi formalaşsın. Məktəbin direktoru onu da qeyd etdi ki, ən güclü silah maarifləndirmədir. Məktəbimizdə milli-mədəni dəyərlərimizə, tarixi irsimizə layiq ruhda vətəndaşlar yetişdirməyə çalışırıq.

Daha sonra məktəbin tərbiyə işləri üzrə direktor müavini Səfa Orucəliyevin, dil-ədəbiyyat müəllimi Eldar Məmmədvəliyevin müşayiəti ilə məktəbin direktoru bizi məktəblilərin ayrı-ayrı foyelərdə əl işlərindən təşkil olunmuş yaradıcılıq guşələri ilə tanış elədi. Azərbaycanımızın tarixi və etnoqrafiyası, qəhrəmanlıq səhifələri ilə bağlı sərgilər bir daha məktəbdə şagirdlərə milli, hərbi vətənpərvərlik ruhunun yetərincə aşılanmasından xəbər verirdi. Cocuq Mərcanlı, Aprel döyüşləri, Milli Qəhrəman Mübariz İbrahimova həsr olunmuş sərgilər, məktəbin daxilindəki səliqə və nizam-intizam məsələləri könlümüzü oxşadı. Bütün bunların isə əyani təsdiqini məktəblilərin simasında gördük. Belə ki, Dövlət Himnimizin səsləndirilməsilə başlanan tədbir Fatma müəllimənin "4" - cüləri tərəfindən çox böyük ustalıqla öz məcrasına düşdü. Əllərində Azərbaycan bayrağını yelləyərək xorla oxuduqları S. Rüstəmin " Azərbaycana gəlsin," Səməd Vurğunun " Azərbaycan" şeirləri və başqa vətənpərvərlik məzmunlu şeirlər həm də onların əzmkar birlik, həmrəylik duyğularını əks etdirirdi.

Dördüncülərin xüsusi geyimdə, əllərində qılınc və qalxan tutaraq səhnəyə çıxıb, Koroğlu və onun dəliləri timsalında cəngavərlik ruhlu musiqi sədaları altında oxumaları tədbir iştirakçılarında xoş təəssürat yaratdı. Bu zaman slaydların nümayişi də bu aləmə ayrıca bir gözəllik qatırdı.

İmişli, Beyləqan və Cəbrayıl rayonları ilə bağlı məktəblilərin bitkin və dolğun məlumatlarla çıxışları isə tədbirin məzmununa uyğun olaraq " Azərbaycanımızı tanıyaq və tanıdaq" layihəsinin ruhunu əks etdirirdi.

Milli geyimdə səhnəyə çıxıb milli rəqs ifa etmələri də tədbirə xüsusi canlılıq gətirirdi.

Ancaq elə ki, məktəblilərin ifasında Cəbrayıl bir qərib bayatı kimi ötdü, videoslaydlar vasitəsilə Cəbrayılın mənzərəli yerləri, tarixi abidələri nümayiş olundu, bu məqamda, necə deyərlər, " Qəribi ağlamaq tutdu, nə tutdu"- Məmmədəli müəllimin, Vilayət müəllimin gözlərindən abi-leysan kimi yaş süzülməyə başladı. Ardınca isə Cəbrayıl rayonunun işğalı, dəvə karvanı ilə didərginlik köçünün göstərilməsi beynimə-düşüncəmə yanıqlı-yaralı bir tacik mahnısının sözlərini gətirdi: Ay sariban, ay sariban,

Qico mera ay kariban?

Tərcüməsi " ay sarvan, ay sarvan, hara gedər bu köç-karvan?" demək olan bu mahnının nəqəratı sanki bizim 25 illik qəriblik-köçkünlük həyatımızın hayı-harayı idi. Sanki yer də, göy də dilə gəlib haray çəkdi. Yer ona görə nalə çəkdi ki, yer altından Cəbrayıldan uzaqlarda qərib kimi torpağa tapşırılanlarımızın ruhları bir zədəli qıyya çəkdi, bizi göynətdi-kövrəltdi, göy ona görə haray çəkdi ki, bu yerdəki müsibətə ruhlar aləmi də dözmədi, fəğan qopartdı. Bizim Cəbrayıl həsrətilə kövrəlib-doluxsunmağımızın, ağlamağımızın mahiyyətində isə yurda-torpağa olan bağlılığımız - sevgi duyğularımızın izharı özünü büruzə verirdi. Bizim bu kövrəkliyimiz isə məktəblilərin də könül dünyalarında bir rezonans-silkələnmə. oyanış duyğusu yaradırdı....

Onu da qeyd edək ki, məktəbin kollektivi Cocuq Mərcanlı məktəbi ilə əməkdaşlıq edir, hətta onlara hədiyyələr də göndərirlər.

Tədbirin sonunda məktəbin direktoru Məhluqə Əzizova çıxış edib, gələn qonaqlara minnətdarlığını çatdırdı. Məqsədini açıqladı ki, digər bölgələrimizlə bağlı da bu cür maarifləndirici proqramlar hazırlayacaq, Vətənimizin tanıdılmasında-təbliğində səylərini daha da artıracaqlar.Məktəbin kollektivi ilə Cocuq Mərcanlıya səfər etmək niyyətlərində olduqlarını da bildirən məktəb rəhbəri sözü Qarabağ müharibəsi qazisi Mübarək Sevdimalıyevə və digər qonaqlara verdi.

Daha sonra SOCAR-ın sabiq baş meneceri Məhəmmədəli Məmmədzadə tədbirlə bağlı təqdiredici fikirlər səsləndirib, Cəbrayılla bağlı xatirələrini, tədbirdən aldığı xoş təəssüratlarını bölüşdü və bu cür yüksək səviyyəli tədbiri araya-ərsəyə gətirənlərə, habelə məktəb rəhbərliyinə minnətdarlıq hisslərini ifadə etdi.

Axırda tədbir iştirakçıları birgə xatirə şəkilləri çəkdirdilər.

**Şakir Əlifoğlu**

# Xəlyəddinin nəsihətləri




Yaxınların söhbətidir. Xətrini çox istədiyim dostum rəhmətlik Cidalı Cəbrayılovun oğlu Namiq müəllimlə iş otağında görüşdüm. Onu bir dəfə İsaqlı kəndində evlərində görmüşdüm. Onda uşaq idi, məktəbdə oxuyurdu. İndi görən kimi atasına oxşadığına görə dərhal tanıdım.

Xeyli söhbətləşdik, atası ilə olan xatirələrdən danışdıq. Söz əmisi rəhmətlik Xəlyəddindən düşəndə stolun üstündəki bir neçə kitabdan birini götürüb mənə tərəf uzadaraq dedi:

-Əmimin yaxşı nəsihətləri var idi, qoruyub saxladığım bu nəsihətlərini kitab halında çap etdirmişəm. Elə adını da "Nəsihətlər" qoymuşam.

Kitabı əlimə alıb o tərəf-bu tərəfinə dönə-dönə baxdım. Şer formasında olan nəsihətlərdən bir-ikisinə baxmışdım ki, xəyal məni ağuşuna alıb ötən əsrin düz səksəninci illərinin əvvəllərinə apardı.

Yolum Qalacıq kəndinə düşmüşdü. Kolxoz idarəsinin qarşısında maşından düşəndə Cidalı Cəbrayılovla qarşılaşdım. O, kolxozun baş zootexniki idi. İşini çox gözəl bilir, peşəsinə hörmətlə yanaşırdı. Qayğıkeşliyi, bacarığı, işgüzarlığı, zıhmətkeşliyi sayəsində kolxoz hər il dövlətə heyvandarlıq məhsulları satışı planını, öhdəliyini artıqlaması ilə yerinə yetirirdi.

Onunla söhbət edə-edə hər dəfə olduğu kimi yenə qaramal fermasına gəldik. Vəziyyətlə tanış olub qeydlərimi götürdüm. Cidalı qolumdan tutub dedi:

-İşimizi qurtardıq. İndi isə qalxaq İsaqlı kəndinə, evimizə.

Düzü, heç vaxt onun sözünə etiraz etməmişdim. Bu dəfə vacib işlərim olduğuina görə razı olmadım. Xətrinə dəyməmək üçün əlimi sağ çiyninə qoyub:

-İncimə, iki saatdan sonra işdə olmalıyam. Ona görə də bu dəfə sözünə əməl edə bilməyəcəyəm. Qalsın sonraya.

Onun bir az alındığını görüb yenidən dilləndim:

-Xəlyəddinlə də görüşmk istəyirəm. Onun nəsihətlərindən bir neçəsini dinləmək könlümə düşüb. Mümkünsə birlikdə onun yanına gedək.

-İndi onu ancaq üzüm bağında görmək olar.

Maşına əyləşib onun başçılıq etdiyi briqadanın üzüm bağına gəldik. Alçaq təpəlikdə yerləşən üzüm plantasiyaları göz oxşayırdı. Xəlyəddin maşını görən kimi üzümlükdən çıxıb bağın kənarında dayandı. Ona çatan kimi maşından düşdük. Görüşüb bol məhsul yetişdirdiyinə görə ona təşəkkürümüzü bildirəndə dedi:

***Mən də briqadirəm təmizdir bağlar,***
***Qoruyur üzümü qoynunda dağlar.***
***Taxıl-tərəvəzi mahalı saxlar,***
***Hər cür matah yetişdirir bu torpaq.***

Sözünü qurtaran kimi qolundan tutub gülə-gülə dedim:

- Ürəyimdən keçənləri bildiyinə görə afərin sənə. Bu dəfə bağlara baxmağa deyil, sənin nəsihətlərini dinləmək üçün yanına gəlmişəm...

-Bayaqdan sizə baxıram. Qəsdən dillənmirəm. Nə barədə düşündüyünüzü olar mən də bilim.

Namiq müəllimin dillənməyi məni xəyaldan ayırdı. Dərindən köks ötürüb üzümü ona tərəf çevirdim. Bayaqdan nə barədə fikirləşdiyimi ona da söylədim. Sonra kitabı vərəqləyərək bir neçə nəsihətini oxudum. "Dünya" adlı nəsihətinin bir yerində deyir:

***Ölüm haqdır, bilirik ki, yaxındır,***
***Yaxşılıq et, əlsizlərə yaxın dur.***
***Baxma pula, vara, demə yoxumdur,***
***Heç olmasa bir ad qoy get dünyadan.***

O, "Fələk" başlıqlı nəsihətində də çox dəyərli sözlər deyir. Fələyə dair nəsihətlərinin birində oxuyuruq:

***Birin sonsuz edir çəkdirir zillət,***
***Birin kasıb edir qoyur xəcalət,***
***Bilmirsən neyləyir yaman, o fələk.***

"Yaxşıdır" başlığı altında verilmiş nəsihətlərdə yaxşılıqlardan, pis işlərdən, halal zəhmətlə dolanmaqdan və s. bol-bol danışılır. Onun bircə nəsihətini oxuyanda hər şey aydın olur:

***Heç vaxt uzaq olma halal əməkdən,***
***Sözünü asta de, danışma bərkdən.***
***Namərdin plovun, aşın yeməkdən,***
***Mərdin ayranını içsən yaxşıdır.***

Bir neçə nəsihətləri oxuduqdan sonra üzümü Namiq müəllimə tərəf çevirdim. Gülümsəyib razılıq əlaməti olaraq başımı tərpətdim. Bu xeyirxah işinə görə ona təşəkkürümü bildirdim.

**Sərməst Seyidəliyev**

## Cəbrayıl rayon prokurorunun 2018-ci ilin 1-ci rübündə yaşayış yerləri üzrə vətəndaşların qəbul vaxtları

| S/S | Yaşayış yerinin adı və qəbul yeri | Qəbul vaxtı | Qəbulu keçirən şəxs |
|---|---|---|---|
| 1. | Beyləqan rayonu Milabad kəndində yerləşən Cəbrayıl rayonu Dağtumas kənd tam orta məktəbinin fəaliyyət göstərdiyi inzibati bina | 11.01.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 2. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 27.01.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 3. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 10 saylı qəsəbə | 02.02.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 4. | Bakı şəhəri, Nərimanov rayonu (Cəbrayıl rayon İcra Hakimiyyətinin qərargahı) | 24.02.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 5. | Sumqayıt şəhəri, Kimyaçılar qəsəbəsi, S.Vurğun küçəsi-3, Cəbrayıl rayonu, 6 saylı tam orta məktəbinin fəaliyyət göstərdiyi inzibati bina | 17.03.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |
| 6. | Biləsuvar rayonu ərazisində məcburi köçkünlərin məskunlaşdığı 11 saylı qəsəbə | 30.03.2018-ci il Saat: 11:00 | Prokuror Maarif Hüseynov |

№ 15 - 16 (6791-6792) 29 dekabr 2017-ci il



"Xudafərin harayından qalan mən!.."
XUDAFƏRİN

# İŞƏGÖTÜRƏNLƏRİN NƏZƏRİNƏ!

## *Əmək müqaviləsinin rəsmiləşdirilməsi*

İşəgötürən ona məxsus iş yerində haqqı ödənilməklə çalışan fiziki şəxslə ilkin olaraq fərdi qaydada yazılı əmək müqaviləsi (kontrakt) bağlamalı, bundan sonra əmək müqaviləsinin məlumatlarını Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron informasiya sisteminə daxil edərək onun hüquqi qüvvəyə minməsi üçün müvafiq bildiriş əldə etməlidir.

Əmək müqaviləsi bildirişinin elektron informasiya sisteminə daxil edilməsi üçün işəgötürənin və ya onun səlahiyyət verdiyi şəxsin gücləndirilmiş elektron imzası, o cümlədən ASAN İmzası olmalıdır. ASAN İmza SİM kartını mobil operatorların (Azercell, Bakcell, Nar Mobile) nümayəndəliklərindən əldə edib, vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət etməklə ASAN İmza sertifikatı ala bilərsiniz.

İşəgötürən tərəfindən əmək müqaviləsi hüquqi qüvvəyə minmədən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi isə qanunvericiliklə müəyyən edilmiş məsuliyyətə səbəb olur:

| Qanun pozuntuları | Məsuliyyət tədbirləri |
|---|---|
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə (Vergi Məcəlləsi, maddə 58.10) | hər bir belə işçi üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxsləri hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (İnzibati Xətalar Məcəlləsi, maddə 192.1) | fiziki şəxslər 1.000 manatdan 2.000 manatadək miqdarda,<br>vəzifəli şəxslər 3.000 manatdan 5.000 manatadək miqdarda,<br>hüquqi şəxslər 20.000 manatdan 25.000 manatadək miqdarda inzibati cərimə edilir. |
| Əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda (yəni 10 nəfər və ondan çox olan) işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə (Cinayət Məcəlləsi, maddə 162-1.1) | 7000 manatdan 10 000 manatadək miqdarda cərimə və ya 3 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. |
| Eyni əməllər təkrar törədildikdə (Cinayət Məcəlləsi, maddə 162-1.2) | 3 ildən 7 ilədək müddətə azadlıqdan məhrumetmə ilə cəzalandırılır. |

Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Əlavə məlumatı www.taxes.gov.az və www.e-gov.az saytlarından, vergi ödəyicilərinə xidmət mərkəzlərindən və "195-1" Çağrı Mərkəzindən əldə edə bilərsiniz.

**Cəbrayıl rayon Vergilər Şöbəsi**

# VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!

## *Əmək müqaviləsinin rəsmiləşdirilməsi*

İşə qəbul olunarkən işəgötürənlərdən əmək müqaviləsinin bağlanmasını tələb edin. Əmək müqaviləsi ilk növbədə sosial maraqlarınızın təmin olunmasına xidmət edir və rəsmiləşdirilməmiş əmək fəaliyyətinə razılaşmaqla Siz gələcəkdə dövlətin sosial təminatından və bir sıra üstünlüklərdən məhrum olursunuz.

| İşçinin hüquqları və üstünlükləri | Əmək müqaviləsi ilə fəaliyyət göstərdikdə | Əmək müqaviləsiz fəaliyyət göstərdikdə |
|---|---|---|
| 8 saatlıq iş hüququ | ☑ | X |
| Əmək məzuniyyətindən istifadə hüququ | ☑ | X |
| Peşə-əmək qabiliyyətinin itirilməsi hallarında icbari sığorta hüququ | ☑ | X |
| Xəstəlik və işdənçıxma müavinətinin tam həcmdə alınması hüququ | ☑ | X |
| Gələcəkdə layiqli əmək pensiyasının alınması imkanı | ☑ | X |
| İpoteka və digər kreditləri almaq imkanı | ☑ | X |
| Məhkəmədə hüquqların müdafiəsi | ☑ | X |

İşəgötürənlə əmək müqaviləsi bağlamaqla və rəsmi əmək haqqı ödəməyi tələb etməklə Siz gələcəyinizi indidən düşünmüş olursuz. Unutmayın ki, Sizə ödənilən rəsmi əmək haqları - sabah üçün sabit sosial təminatınızın təməlidir!

Bununla bağlı hüquqlarınız pozularsa, vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya "195-1" Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

**Cəbrayıl rayon Vergilər Şöbəsi**

## Vergi ödəyicilərinin nəzərinə!

22.01.2018-ci il tarixi aşağıdakı vergi bəyannamələrinin təqdim edilməsi və ödənilməsinin son günüdür:

"Əlavə dəyər vergisinin bəyannaməsi

"Xüsusi notariusların Gəlir vergisi bəyannaməsi

"Sadələşdirilmiş verginin (o cümlədən daşınmaz əmlakın təqdim edilməsi və pul vəsaitlərinin nağd çıxarılması üzrə) bəyannaməsi

"Aksiz bəyannaməsi

"Yol vergisi bəyannaməsi

"Mədən vergisi bəyannaməsi

"Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) bəyannaməsi

"Ödəmə mənbəyində (o cümlədən uduş və mükafatlardan) tutulan vergi bəyannaməsi

"Dövlət rüsumunun tutulması barədə hesabat.

## Vergi ödəyicilərinin nəzərinə!

31.01.2018-ci il tarixi ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan illik vergi bəyannaməsinin təqdim edilməsinin son günüdür.

**Cəbrayıl rayon Vergilər Şöbəsi**

## 2018-ci ili yanvar ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

### YADDAŞ

**2017-ci ilin dekabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları**

"Əlavə dəyər vergisi bəyannaməsi,

"Aksiz bəyannaməsi,

"Yol vergisi bəyannaməsi,

"Mədən vergisi bəyannaməsi,

"Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və

"Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

"Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi

2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 4-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları**

" Sadələşdirilmiş verginin bəyannaməsi və

" Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

"Xüsusi notariusların gəlir vergisi bəyannaməsi

2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidirr.

"Dövlər rüsumu haqqında hesabat

2018-ci ilin yanvar ayının 22-dək vergi orqanına təqdim edilməli, notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi**

"ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən 2018-ci ilin yanvar ayının 31-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq tam həcmdə dövlət büdcəsinə ödənilməlidir

"Digər vergi ödəyiciləri tərəfindən (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) 2018-ci ilin yanvar ayının 22-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və 2017-ci ilin dekabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin 4-cü rübü üzrə hesablanmış cari ödəmələr 2018-ci ilin yanvar ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***

Bəyannamələr müəyyən edilən müddətdə təqdim edimədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).

Hörmətli vergi ödəyiciləri, Bəyannamələrinizi və bəyannamələr üzrə hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi portalı vasitəsi ilə elektron qaydada təqdim edə və ödəyə bilərsiniz. Bununla vaxtınıza qənaət etmiş olarsınız.

2018-ci ilin yanvar ayının 7-i, 14-ü və 21-i tarixlərində efirə gedəcək "İqtisadi Zona" verilişi üçün elan - Vergi Təqvimi)

## Vergi ödəyicilərinin nəzərinə!

Gəlir və mənfəət vergisi üzrə cari ödəmələrin son müddəti 15.01.2018-ci ildir.

ƏDV, Aksiz, Yol və Mədən vergisi üzrə bəyannamələrin təqdim edilməsinin və vergilərin ödənilməsinin son müddəti 22.01.2018-ci ildir.

Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 22.01.2018-ci ildir.

Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş vergi bəyannaməsinin təqdim edilməsinin son müddəti 22.01.2018-ci ildir.

ƏDV-nin ödəyicisi olmayan Gəlir və və Mənfəət vergisinin ödəyicilərinin Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan rüblük vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 22.01.2018-ci ildir.

Ödəmə mənbəyində (o cümlədən uduş və mükafatlardan) tutulan vergi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 22.01.2018-ci ildir.

Xüsusi notariusların gəlir vergisi bəyannaməsinin təqdim edilməsinin və verginin ödənilməsinin son müddəti 22.01.2018-ci ildir.

Dövlət rüsumunun tutulması barədə hesabatın təqdim edilməsinin son müddəti 22.01.2018-ci ildir.

ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri tərəfindən Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan illik vergi bəyannaməsinin təqdim edilməsinin son müddəti 31.01.2018-ci ildir.

**Cəbrayıl rayon Vergilər Şöbəsi**

2018-ci ilin yanvar ayının 7-i, 14-ü və 21-i tarixlərində efirə gedəcək "İqtisadi Zona" verlişi üçün elan - Vergi Təqvimi)

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Elman Feyzullayevə, həyat yoldaşı

**Sədaqət İsmayıl qızının**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin!**

**Cəbrayıl RİH, YAP rayon təşkilatı və "Xudafərin" qəzeti**

Məmmədov Hüseyn Şəkərəli oğlunun, Osmanov Məhəmməd Əli oğlunun, Sadıqova Gülsəba Məhərrəm qızının, Şirinov Mönsüm Allahverən oğlunun

**vəfatlarından kədərləndiklərini bildirir və ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.**

**Allah rəhmət eləsin!**

Baş redaktor:
**Şakir Əlif oğlu ALBALIYEV**

Qəzet Ədliyyə Nazirliyində qeydə alınıb.
**H/h:55233080000**
**kod: 200888**
**VÖEN: 9900003611**
**M/h: 013010001031**
**Kapitalbankın Cəbrayıl filialı**
**VÖEN: 8200035441**
**Ünvan: AZ 1073, Bakı şəh.,**
Mətbuat prospekti, 529-cu məhəllə "Azərbaycan" nəşriyyatı.
**Telefon:** (051) 441-15-82

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

Materiallardakı faktların doğruluğuna müəlliflər cavabdehdir.

**Əlyazmalar geri qaytarılmır.**

Qəzet "Açıq Səma" qəzetinin kompüter mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında çap edilib.
**albaliyevshakir@rambler.ru**
**Sifariş №: 3803**
**Tiraj: 1000**